<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditləri sayı</td><td colspan="2">AZLL 640 Frazeologiyanın üslubi imkanları, 6 AKTS</td></tr>
<tr><td>Departament</td><td colspan="2">Dillər və ədəbiyyatlar</td></tr>
<tr><td>Proqram (bakalavriat, magistratura)</td><td colspan="2">Magistratura</td></tr>
<tr><td>Tədris semestri</td><td colspan="2">2024/2025-ci tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td colspan="2">Filologiya üzrə fəlsəfə doktoru İlkin Əsgərov</td></tr>
<tr><td>E-mail:</td><td colspan="2">ilkin.esger@mail.ru<br>ilkin.asgarov@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td colspan="2"></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td colspan="2"></td></tr>
<tr><td>Məsləhət saatları</td><td colspan="2">Tələbələrlə razılaşdırılmış vaxtda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="3">Yoxdur</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="3">Azərbaycan dili</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="3">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="3">1. İ.Süleymanova. Frazeologiyanın üslubi imkanları. Bakı.2013<br>2. M.Mirzəliyeva. Türk dillərinin frazeologiyası. Bakı.2009<br>3. K.Əhmədova. Azərbaycan dilində və Türkiyə türkcəsində frazeoloji birləşmələr. Bakı.2006<br>4. İngiliscə-azərbaycanca və azərbaycanca- ingiliscə somatik frazeoloji birləşmələr lüğəti. Bakı. 2005<br>5. H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı.1978<br>6. Məhərrəm Hüseynov. Poetik frazeologiya.Bakı, 2013<br>7. Ə.Tanrıverdi. “Koroğlu”nun şeir dili. Bakı, 2015<br>8. S.Kərimova. Müasir Azərbaycan dilində sintaktik frazeoloji konstruksiyaların funksional xüsusiyyətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş disssertasiya. Sumqayıt, 2024<br>9. K.Nəbiyeva. Azərbaycan qadın şairlərinin dilinin frazeologiyası. Filologiya üzrə fəlsəfə doktoruelmi dərəcəsi almaq üçün təqdim ed. dis. avtoreferatı. Bakı, 2017<br>10. Vüsalə Tahirova. Azərbaycan dilində məkan və zaman bildirən frazeoloji birləşmələr. Bakı, 2018<br>11. L.Cəfərova. Bədii mətnin struktur-semantik təşkilində sabit söz birləşmələrinin rolu. Filologiya elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı,2013<br>12. Ə.Rəcəbli. Frazeologiya. Bakı, 2021<br>13. S.Cəfərov. Müasir Azərbaycan dili. Leksikologiya.Bakı, 2007<br>14. A.Qurbanov. Müasir Azərbaycan ədəbi dili. Bakı, 2003<br>15. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000008633<br>16. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000698647</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">+</td></tr>
<tr><td>İnteraktiv mühazirə</td><td colspan="2">+</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">+</td></tr>
<tr><td>Sual-cavab,</td><td colspan="2">+</td></tr>
<tr><td>Təqdimat</td><td colspan="2">+</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="5">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Fəallıq</td><td></td><td>10</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Tapşırıq</td><td></td><td>5</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | Final imtahanı | | 40 |
| | Quiz | | 10 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | “Frazeologiyanın üslubi imkanları” kursunda Azərbaycan dilində frazeoloji ifadələrin yaranma yolları, onların üslubi üslubi imkanları, bədii əsərlərdə işlənən frazeoloji ifadələrin növləri,yəni ismi və feili frazeoloji ifadələr, onları təşkil edən komponentlər, üslubi frazeoloji ifadələrin leksik-semantik, qrammatik xüsusiyyətlərinin öyrənilməsi nəzərdə tutulmuşdur. | | |
| **Kursun məqsədləri** | “Frazeologiyanın üslubi imkanları” kursunun əsas məqsədi Azərbaycan dilində işlənən frazeoloji birləşmələrin quruluşunu və özünəməxsus özəlliklərini, əmələ gəlmə yollarını, növ və tiplərini, mənsub olduğu dilin səviyyələri əsasında (leksik, qrammatik, semantik) formalaşmasını, eyni zamanda frazeoloji ifadələrin tərkibini dildəki müstəqil mənalı leksik vahidlərlə yanaşı, eyni zamanda çoxmənalı, məcazi, sinonim, antonim sözlərin də iştirak etməsini və bədii ədəbiyyatda yaratdığı üslubi imkan və çalarlıqları öyrənməkdir. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | “Frazeologiyanın üslubi imkanları” fənnini öyrənərkən əsasən aşağıdakı nəticələr əldə olunur:<br><br>1. Tələbə frazeologiya haqqında ümumi məlumata sahib olur və sərbəst və sabit söz birləmələrinin oxşar və fərqli cəhətlərini müəyyən etməyi bacarır;<br>2. Frazeoloji vahidlərin tiplərini və işlənmə xüsusiyyətlərini ayırd edə bilir;<br>3. İsmi və feili frazeoloji birləşmələrin funksional xüsusiyyətlərini təhlil edə bilir;<br>4. Fazeoloji antonim, sinonim və omonimlərin işlənmə xüsusiyyətlərini və onların bədii ədəbiyyatdakı aktuallığını dərk edir;<br>5. Frazeologiyanın üslubi imkanlarını və frazemlərin nitqdə yaratdıqları leksik-semantik çalarları müəyyənləşdirir. | | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Fəallığa görə veriləcək bal tələbənin sual-cavabda iştirakına görə verilir. Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınır. Üzürsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılır.<br><br>Fənnin tədrisi zamanı verilən ballara aydınlıq gətirsək;<br><br>**Aralıq imtahanı – 30 (**imtahanda tələbələrin biliyi tapşırıqlar və ya açıq suallar vasitəsilə yoxlanılır)<br>**Fəallıq – 10** (dərs zamanı sual-cavabda və keçilən mövzu ilə bağlı müzakirələrdə iştiraka və təqdimat bacarığına görə verilir)<br>**Tapşırıqlar - 5** (ev tapşırıqlarının yerinə yetirilməsinə görə verilir)<br>**Quiz -10** (Tapşırıq və ya açıq suallardan ibaraət ola bilər)<br>**Final imtahanı - 40** imtahanda praktiki tapşırıq və açıq sualllardan istifadə olunacaq)<br>**Davamiyyət - 5** (Davamiyyətə görə bal verilməsində tələbənin dərsdə ardıcıl iştirakı və dərsdə özünü qaydalara uyğun aparması nəzərə alınacaqdır. Üzürsüz buraxılan 2 dərs üçün 1 (bir) bal çıxılacaq.<br>**İmtahan haqqında:**<br><br>1. İmtahana hazırlaşarkən dərslərdə götürülmüş qeydləri öyrənməklə yanaşı, dərsin iş planında göstərilmiş ədəbiyyatlara, o cümlədən əlavə mənbələrə də müraciət etmək lazımdır.<br><br>2. İstifadə ediləcək ədəbiyyatın bir qismi tərəfimizdən təmin ediləcəkdir. | | |

| Cədvəl (dəyişdirilə bilər) | | | |
|---|---|---|---|
| **Həftə** | **Tarix (planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1. | | Frazeologiya haqqında məlumat. Frazeologiyanın predmeti və təşəkkülü. Frazeologiyanın üslubi imkanlarının nəzəri əsasları | 2,s.15-24 |
| 2. | | Müasir Azərbaycan dilinin frazeologiyası. İdiomlar, ibarələr, hikmətli sözlər, atalar sözü və zərbi-məsəllər. | 13,s. 88-105 |
| 3. | | Frazeoloji vahidlərin tipləri, sabit söz birləşmələri və onların sərbəst birləşmələrdən oxşar və fərqli cəhətləri, frazemlərin məna növləri və onların əmələ gəlməsi. | 14,s.372-393 |
| 4. | | Üslubi frazeoloji ifadələrin semantik xüsusiyyətləri. Sinonim və antonim frazeoloji birləşmələr | 1,s.242-283 |
| 5. | | Omonim frazeoloji birləşmələr və onların üslubi imkanları. Sinonim, antonim və omonim frazeoloji vahidlərin bədii mətnlərdə yaratdığı üslubi imkanlar. Mətn üzrə iş. | 1,s.242-283 |
| 6. | | Frazeoloji birləşmələrin bədii təsvir və təsir imkanları | 6,s.24-89 |
| 7. | | Şeir dilində frazeoloji birləşmələrin aktuallaşması. B.Vahabzadənin dilinin frazeologiyası | 6,s. 89-153 |
| 8. | | I,II və III növ təyini söz birləşmələri modelində formalaşan üslubi frazeoloji ifadələr | 1,s.14-68 |
| 9. | | Üslubi feili frazeoloji ifadələr haqqında məlumat. Somatik leksika əsasında formalaşan üslubi feili frazeoloji ifadələr | 1,s.184-219 |
| 10. | | Nəsr dilinin frazeologiyası. “Kitabi-Dədə Qoqud” və “Koroğlu” dastanlarının dilinin frazeologiyası | 7,s. 173-191 |
| 11. | | Somatik leksika əsasında formalaşan feili frazeoloji ifadələr üzərində iş<br>Coğrafi terminlər əsasında formalaşan üslubi feili frazeoloji ifadələr | 1,s.219-230 |
| 12. | | Somatik frazeoloji vahidlərin dildə nitqdə rolu və əhməyyəti. Bədii mətnlər üzrə iş | 1,s.219-230 |
| 13. | | Məkan və zaman bildirən frazeoloji birləşmələr və onların üslubi xüsusiyyətləri | 10,s.103-134 |

| | | | |
|---|---|---|---|
| 14. | | Frazeoloji vahidlərin semantik və qrammatik xüsusiyyətləri | 2,s.112-166 |
| 15. | | Mətnlər üzərində iş<br>Quiz | |
| | | **Final imtahan** | |